# Qalibiyyətin və milli ləyaqətin təntənəsi

**Uzun illərdən sonra Azərbaycan Silahlı Qüvvələr Gününü fərqli ovqatda keçirdik. Qalib ölkə olaraq, sevincimiz, fərəhimiz, qürurumuz bu il bir başqadır. Hər keçən il daha başqa olacaq. Hələ 2 – 3 il öncə bir yazar dostumuz mətbuatda maraqlı mühakimə ilə çıxış etmişdi. Məzmunu belə idi ki, Ermənistan əldə etməli olduqlarından haqsızca artığını əldə edib və bu gedişat öz məntiqi sonluğuna çatacaq.**



Artıq Azərbaycan yüksələcək və Ermənistan layiq olduğu enişi yaşayacaq. O mühakimə özünü tam doğrultdu. Haqsız "uğur"lardan başı gicəllənən Ermənistanın hərbi – siyasi rəhbərliyi "Qarabağ – Ermənistandır və nöqtə", "Yeni müharibə – yeni ərazilər" kimi sərsəm bəyanatlar verdi...

Ardınca Ermənistandan Cəbrayıla, Kəlbəcərə yeni yollar çəkilməyə başlandı, qondarma Xankəndi rejiminin "seçkilər"i keçirildi, Şuşada "andiçmə" hoqqası çıxarıldı, oyuncaq "parlament"in Xankəndidən Şuşaya köçürüləcəyi və s. kimi açıqlamalar oldu. Ermənistanın azğınlığı o həddə çatdı ki, Qarabağdakı qanunsuzluqları bir yana, 12 iyul 2020-ci ildə Tovuza qəfil hücuma cəhd etdi. Tovuzda "burnu ovulan" düşmən avqustda Goranboya kəşfiyyat – diversiya qrupu göndərdi. Və nəhayət, sentyabrın 27- də Qarabağdakı Ermənistan hərbi birlikləri təmas xətti boyunca hücuma cəhd etdi. Bu, artıq bardağı daşıran son damla oldu.

Ali Baş Komandanın "İrəli!" əmri üzrə hərəkətə keçən şanlı ordumuz ildırım sürətli əks-hücumla keçilməz sədləri keçdi, alınmaz postları aldı. İşğalçı ilə qurtarıcının, yadelli ilə torpaq yiyəsinin fərqini, saxta "qalib ədası" ilə əsl qəhrəmanlığın açıq fərqinin necə olduğunu göstərdi. Budur, Ermənistanda ictimai – siyasi proseslər Azərbaycan "dəmir yumruğu"nun kölgəsində cərəyan edir. Budur, o, "dəmir yumruq" Hadrutda abidəyə çevrilir. O "dəmir yumruq" ki, saxta erməni "qəhrəmanlar"ın yaxasındakı dəmir-dümürü taxmağın onlara verdiyi xəcaləti nümayiş etdirərkən, əsl qəhrəmanların təltif olunma mərasiminin təntənəsini yaşadır bizlərə.

Builki bayramların hər biri ayrı bir gözəllik kəsb edir. Bu sırada Silahlı Qüvvələr Gününün öz yeri, öz missiyası var. Əcdadın hərb ənənələrini müasir hərbin yenilikəri ilə universal şəkildə birləşdirən Azərbaycan Ordusu öz müzəffər Ali Baş Komandanının başçılığı ilə bölgəyə, yaxın – uzaq coğrafiyaya həqiqətin gücünü, gücün həqiqətini göstərdi.

Tarixi ədaləti bərpa etmiş Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin bütün çıxışları maraqlı və yaddaqalan olub. Prezidentin çıxışları ən ümidsiz vaxtlarda ümid verib, inam aşılayıb. Tarixi zəfərdən sonrakı çıxışlarında isə Prezident öz öncəki çıxışlarında verdiyi vədləri bir - bir xatırladaraq, mövcud dəyərli nəticələrə necə gəlindiyinin yol xəritəsini cızması ilə seçilir. Özü də, Prezidentin müharibədən sonrakı çıxışları yalnız bugünə necə gəldiyimizi ifadə etmir, eyni güclə bundan sonrakı yolumuzu da göstərir. Azərbaycan dövlətinin daxili siyasətdə, beynəlxalq aləmdə, ordu quruculuğunda, iqtisadi sahədə, siyasi – diplomatik sahədə daha hansı vəzifələri var? Dövlət başçısının çıxışlarına, konkret olaraq, Silahlı Qüvvələr Günü münasibəti ilə çıxışına diqqət etməklə, gələcək yolumuzu və vəzifələrimizi aydın görə bilərik. Görə bilərik ki:

– Azərbaycan xalqı öz dövlət başçısının güclü siyasi iradəsi ilə qarşıya qoyulmuş bütün vəzifələri bundan sonra da yerinə yetirəcək;

– Xocalı soyqırımını, Qarabağda yaşananları, vandalların Azərbaycana vurduğu ziyanları unutmuruq, unutamayacağıq;

– Sihalı Qüvvələrimizin say tərkibi, silah arsenalı daha da böyüyəcək;

– İqtisadi gücümüz yeni reallıqlar fonunda daha da artacaq;

– Böyük qayıdış üçün nə mümkünsə, ediləcək və edilir. Edilir ki, əhalimizin təhlükəsiz şəkildə öz yurd-yuvasına dönüşü və Qarabağda yeni həyat başlasın;

– Qarabağda yeni həyat yalnız psixoloji üstünlüklərə deyil, sosial üstünlüklərə malik olacaq;

– Şəhid ailələrinə, yaralı qazilərə, ümumən ömrü Silahlı Qüvvələrdə keçmiş Vətən oğullarının həyat şəraiti, onlara göstərilən diqqət-qayğı artan xətt üzrə davam edəcək;

– Azərbaycan dünya birliyinin layiqli üzvü kimi öz şan-şöhrətini qorumağa, daha yeni dostlar qazanmağa qadirdir;

– Vətən müharibəsi Azərbaycanın tam qələbəsi ilə bitib və şəhidlərimizin intiqamı döyüş meydanında alınıb. Azərbaycan öz güclü dövlət başçısı, onun intellekti, dövlət – xalq biriyi ilə BMT-nin, ATƏT-in, başqa qurumların edə bilmədiklərini edərək, yeni bir ümumdünya örnəyi yaradıb və s.

Bizim sevinc, fərəh və qürurumuz yalnız qələbəyə əsaslanmır. Həm də qələbəmizin ədalətli qələbə olmasına əsaslanır. Biz ədaləti bərpa etmişik. Bu, mühüm əsasdır. Yalnız onu deyək ki, ədalətsiz qələbə dayanıqlı ola bilməz, xalqa xeyir gətirməz, dünya birliyi tərəfindən qəbul edilməz və s. Biz Ermənistanın məhz belə saxta qəhrəmanlıq tarixcəsini yox edib, onları əsl qəhrəmanlığın necə olduğunu görməyə dəvət etmişik. Biz ədalətli qalibiyyətin, əsl qalibin necə olduğunu göstərdik. Buna müharibədə və sülhyaratmada göstərilən qızıl ləyaqət deyilir!

Prezident İlham Əliyev iyunun 26-da "Gülüstan" Sarayında Silahlı Qüvvələr Günü münasibətilə təşkil edilən mərasimdə Ermənistanla müharibədə ordumuzun qazandığı qələbəyə belə dəyər vermişdir: "Əldə olunmuş Qələbə ədalətin təntənəsidir. Bu tarix Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq. Bu, qürurun təntənəsi idi, milli ləyaqətin təntənəsi idi, Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi idi".

*Qənirə PAŞAYEVA,*
*Milli Məclisin Mədəniyyət komitəsinin sədri*